
*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 22 (23.184)

*31 yanvar 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Şahbuz şəhərində yeni Aviakassa tikilmişdir





Muxtar respublikada hava nəqliyyatı müasir tələblər səviyyəsində qurulmuşdur. Bu sahədə xidmətin hərtərəfli təşkili daim diqqətdə saxlanılır. Turizm bölgəsi olan Şahbuz rayonunda yeni Aviakassanın istifadəyə verilməsi də mühüm əhəmiyyətə malikdir.

Yanvarın 30-da Şahbuz şəhərində yeni Aviakassanın açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənşur Gülməmmədli çıxış edərək demişdir ki, Naxçıvan Beynəlxalq Hava Limanında böyük quruculuq işləri aparılmış, uçuşların təhlükəsizliyi təmin olunmuş, mövcud xidmət potensialı daha da artmışdır. Hava limanında sərnişin və yükdaşımaları müasir səviyyəyə çatdırılmışdır. Müasir memarlıq üslubunda tikilən Şahbuz Şəhər Aviakassası da bu sahədə görülən işlərin davamıdır. Mənşur Gülməmmədli Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazasının möhkəmləndirilməsinə göstərdiyi qayğıya görə mülki aviasiya işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz Şəhər Aviakassasının istifadəyə verilməsi münasibətilə kollektivi və sakinləri təbrik edərək demişdir: Müstəqil Azərbaycanda hava nəqliyyatının inkişafı və hava daşımaların müasir tələblər səviyyəsində qurulması üçün ardıcıl tədbirlər görülür. Bu işlərin tərkib hissəsi kimi Naxçıvan Beynəlxalq Hava Limanı da yenidən qurulmuşdur. Ötən dövrdə muxtar respublikada hava nəqliyyatının inkişafı sahəsində görülən işlər davam etdirilmiş, Naxçıvan şəhərində, Şərur və Ordubad rayonlarında aviakassalar tikilmişdir. Bu gün isə Şahbuz rayonunda müasir Aviakassa istifadəyə verilir. Şahbuz şəhərinin arxitekturasına xüsusi yaraşıq verən Aviakassada 9 yeni iş yeri yaradılmışdır.

Ali Məclisin Sədri demişdir: Həyata keçirilən bu tədbirlər ölkəmizin inkişafının göstəricisidir. Çünki hər bir ölkənin ümumi inkişafı yalnız bir sahədə deyil, bütün sahələrdə inkişaf təmin olunduğu zaman mümkün olur. Bu gün ümummilli liderimiz Heydər Əliyevin yolu ilə gedən Azərbaycanda hərtərəfli inkişaf təmin edilib. Ulu öndərin yolunu uğurla davam etdirən ölkə Prezidenti bütün sahələrin inkişafını diqqətdə saxlayır. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında hava nəqliyyatının beynəlxalq səviyyədə qurulması bunu bir daha təsdiq edir. Muxtar respublikada hava daşımalarının daha etibarlı təşkili sahəsində görülən işlərin davamı olaraq hazırda Naxçıvan Beynəlxalq Hava Limanında ikinci uçuş-enmə zolağı tikilir.

Ali Məclisin Sədri demişdir: Əhalinin rifah halı yaxşılaşır, insanlar ölkəmizin və dünyanın müxtəlif yerlərinə səyahət edirlər. Şahbuz şəhərində yeni Aviakassanın istifadəyə verilməsi də insanların səyahətlərinin rahat təşkilinə hesablanmışdır. 25 mindən çox rayon sakini vaxt itkisinə yol vermədən öz yaşadığı ərazidən həm ölkəmizin, həm də dünyanın istənilən yerinə səyahət etmək üçün bilet ala biləcəklər.

Ali Məclisin Sədri Aviakassanın qurulmasında əməyi olanlara təşəkkür etmiş, xidmətin nümunəvi təşkili ilə bağlı tapşırıqlar vermişdir.

Məlumat verilmişdir ki, iki mərtəbədən ibarət Aviakassa binasının birinci mərtəbəsində gözləmə zalı, kassa, təhlükəsizlik otağı, texniki otaq və məlumat köşkü yerləşir. İkinci mərtəbədə isə Aviakassa işçiləri üçün müasir xidmət otaqları və mətbəx istifadəyə verilmişdir. Binaya sürətli internet xətti çəkilmiş, kompüter dəstləri və POS-terminal, təhlükəsizlik kameraları və sensorlu növbə kartı verən xüsusi avadanlıq quraşdırılmışdır. Sərnişinlər təyyarə reysləri və boş yerlər haqqında əvvəlcədən məlumat əldə edə biləcəklər.

Aviakassa fərdi istilik və mərkəzi soyutma sistemləri ilə təchiz olunmuş, həyətdə abadlıq işləri aparılmışdır.

## Şahbuz Rayon Mədəniyyət Sarayı istifadəyə verilmişdir

Qədim tariximizin, milli dəyərlərimizin və mədəni irsimizin qorunub yaşadıldığı yaşayış məntəqələrindən biri də Şahbuz rayonudur. Özünəməxsus adət-ənənələri, folklor nümunələri, musiqi mədəniyyəti və aşıq sənəti Şahbuz rayonunda tarixən mədəniyyətin inkişafına səbəb olmuşdur. Son illər rayonda aparılan quruculuq işləri mədəniyyət müəssisələrini də əhatə etmiş, mədəniyyət kollektivlərinin fəaliyyəti üçün geniş imkanlar açmışdır.

Yanvarın 30-da Şahbuz Rayon Mədəniyyət Sarayı istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.



Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək demişdir ki, bu gün muxtar respublikamızda mədəniyyətin inkişafı təmin edilmişdir. Son illər mədəniyyət müəssisələri üçün yeni binaların istifadəyə verilməsi, mədəni irsimizin qorunması, yeni muzeylərin, uşaq musiqi və incəsənət məktəblərinin yaradılması, kənd mərkəzlərində kitabxana və mədəniyyət evləri üçün binaların istifadəyə verilməsi, eləcə də xalq yaradıcılığının inkişaf etdirilməsi, tarixi abidələrin bərpası və öyrənilməsi, elmi konfransların keçirilməsi, görkəmli şəxsiyyətlərin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı verilən fərman və sərəncamlar mədəniyyətimizin inkişafına mühüm töhfədir. Şahbuz Rayon Mədəniyyət Sarayı üçün yeni binanın inşası da mədəniyyətə göstərilən böyük qayğının bariz nümunəsidir. Natəvan Qədimova mədəniyyətə və incəsənətə göstərdiyi diqqət və qayğıya görə muxtar respublikanın mədəniyyət işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmiş, yaradılan şəraitə və göstərilən qayğıya əməli işlə cavab verəcəklərinə söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz Rayon Mədəniyyət Sarayının istifadəyə verilməsi münasibətilə rayon sakinlərini və kollektivi təbrik edərək demişdir: Şahbuz Rayon Mədəniyyət Şöbəsi 1936-cı ildə yaradılmışdır. Bu gün istifadəyə verilən Şahbuz Rayon Mədəniyyət Sarayında şöbənin fəaliyyəti üçün lazımi şərait yaradılmışdır. Mədəniyyət Sarayında Rayon Mədəniyyət Şöbəsinin, Mədəniyyət Sarayının və Xalq Teatrının fəaliyyəti təmin edilmişdir. Hazırda Şahbuz rayonunun mədəniyyət müəssisələrində 4 dram dərnəyi, 4 yallı və folklor qrupları fəaliyyət göstərir. Yaradılan şərait imkan verəcəkdir ki, kollektivlər ölkəmizin mədəni inkişafına öz töhfələrini versinlər.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***"Hər bir xalqın mədəniyyəti onu yüksəldir, dünyada tanıdır, mənəviyyatını zənginləşdirir"*** fikirlərini xatırladaraq demişdir: Bu gün ulu öndərin tövsiyələri ölkə Prezidenti tərəfindən uğurla həyata keçirilir. Mədəniyyət sahəsində çalışanlara dövlət təqaüdlərinin və mükafatlarının verilməsi, onların təltif olunması, əməkhaqlarının artırılması, mədəniyyət saraylarının və evlərinin, klubların, kitabxanaların tikilib istifadəyə verilməsi ölkəmizin mədəni inkişafının göstəricisidir.

Ali Məclisin Sədri demişdir: Mədəni inkişaf olmadan ölkənin ümumi inkişafını təmin etmək mümkün deyil. Xalqın mədəni inkişafı onun əsas inkişaf göstəricisidir. Ona görə də ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında mədəniyyətin inkişafı sahəsində lazımi tədbirlər görülür. Mədəniyyət sarayları tikilir, klublar, mədəniyyət evləri və kitabxanalar istifadəyə verilir, xalq yaradıcılığı günləri keçirilir. Şahbuz rayonunda fəaliyyət göstərən dərnəklər, folklor və yallı qrupları üçün lazımi şəraitin yaradılması imkan verəcək ki, mədəniyyət kollektivləri öz repertuarlarını zənginləşdirsinlər, konsertlər hazırlayaraq rayon

*Ardı 2-ci səhifədə*





ictimaiyyətinə təqdim etsinlər. Həmçinin muxtar respublikada fəaliyyət göstərən mədəniyyət kollektivləri burada konsertlər və tamaşalar hazırlayacaqlar. Bir sözlə, Şahbuz Rayon Mədəniyyət Sarayının istifadəyə verilməsi mədəniyyətimizin qorunub gələcək nəsillərə çatdırılmasına və daha da zənginləşdirilməsinə xidmət edəcəkdir.

Ali Məclisin Sədri demişdir: Bu gün dünyada gedən qloballaşma prosesləri zəruri edir ki, hər bir xalq öz mədəniyyətini qorusun və təbliğ etsin. Çünki xalqın səviyyəsini həm də onun malik olduğu zəngin mədəniyyət təsdiq edir. Mədəniyyət Sarayında yaradılan şərait də imkan verəcəkdir ki, xalqımızın qədim mədəniyyətə və zəngin mənəviyyata malik olduğunu göstərə bilək, onları qoruyub gələcək nəsillərə çatdıraq.

Ali Məclisin Sədri qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetiriləcəyinə əminliyini bildirmiş, Şahbuz Rayon İcra Hakimiyyətinə və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinə rayonda müxtəlif mədəni tədbirlərin hazırlanıb həyata keçirilməsi ilə bağlı tapşırıqlar vermişdir.



Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə tanış olmuşdur. Məlumat verilmişdir ki, binada rayon Mədəniyyət Şöbəsi, Mədəniyyət Sarayı və Şahbuz Rayon Xalq Teatrı üçün müasir iş şəraiti yaradılmışdır. Binanın birinci mərtəbəsində proyektorla təmin edilmiş 224 yerlik tamaşa zalı, dekorasiya otağı, 4 qrim otağı, paltarsaxlama və texniki işçilər üçün otaqlar yerləşir. İkinci mərtəbədə Mədəniyyət Şöbəsi, Mədəniyyət Sarayı və Rayon Xalq teatrı üçün iş, məşq və idarəetmə otaqları vardır. Mədəniyyət Sarayında dram, yallı, bədii qiraət və toxuculuq dərnəkləri, "Batabat" instrumental ansamblı fəaliyyət göstərir. Saraya 2 kompüter və 1 fortepiano verilib.

Tamaşa zalında "Batabat" instrumental ansamblının, muğam üçlüyünün, saz ansamblının və yallı kollektivinin çıxışı olmuşdur.

Ali Məclisin Sədri ifaçılarla görüşmüş, uğurlu çıxışlara görə onları təbrik edərək demişdir: Müasir tələblərə cavab verən Mədəniyyət Sarayı Şahbuz rayonunun mədəni həyatında dönüş yaradacaqdır. Rayondakı mədəniyyət kollektivləri, musiqi məktəbləri, yallı qrupları, dram dərnəkləri Mədəniyyət Sarayının imkanlarından səmərəli istifadə etməli, tədbirlər keçirilməli, qurulanlar qorunmalıdır. Təqdim olunan nömrələr bir daha göstərdi ki, kollektivin davamçıları yetişir. Şahbuz rayonunda doğulmuş, lakin Naxçıvan və Bakı şəhərlərində yaşayan musiqiçilər, ifaçılar da dəvət olunmalı, onların Mədəniyyət Sarayında konsertləri keçirilməlidir.

Sonra xatirə şəkli çəkdirilmişdir.

Sarayda fərdi qazanxana və soyutma sistemi quraşdırılmış, həyətdə abadlıq işləri aparılmışdır.

## Şahbuz Rayon Dövlət Arxivi üçün hərtərəfli iş şəraiti yaradılıb

Muxtar respublikamızda arxiv işinin təşkilinə xüsusi diqqət yetirilir. Həyata keçirilən tədbirlər nəticəsində bu sahənin maddi-texniki bazası möhkəmləndirilmişdir.

Yanvarın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz Rayon Dövlət Arxivi üçün yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, Şahbuz Rayon Dövlət Arxivi üçün iş otağı və fond istifadəyə verilmiş, kompüter qoyulmuşdur. Fondda havalandırma sistemi quraşdırılmışdır. Sənədlər ayrı-ayrı rəflərdə cəmləşdirilmiş, onların təsnifatı və arxiv fondu daxilində qruplaşdırılması işləri aparılmışdır.

Ali Məclisin Sədri arxiv sənədlərindən düzgün istifadə və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



## Komissiyanın iclası keçirilib



*Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iclası keçirilib.*

Komissiyanın sədri Ramilə Seyidova gündəlikdə duran məsələlərlə bağlı məlumat verərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 8 avqust tarixli Qərarına əsasən Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın yeni tərkibi təsdiq edilib.

Sonra Ramilə Seyidova muxtar respublikada 2018-ci il ərzində uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair hesabatla çıxış edərək məlumat verib ki, hesabat dövrü ərzində muxtar respublikada olan bütün uşaqların hüquqlarının qorunması, sosial müdafiələrinin və asudə vaxtlarının təşkili, xüsusi istedadlarının üzə çıxarılması, sağlamlıqlarının qorunması ilə əlaqədar tədbirlər görülüb, monitorinqlər təşkil edilib, uşaqlar haqqında məlumat bazası yaradılıb. Hesabat ili ərzində 10 uşaq qəyyumluq və himayəyə verilib, həmin uşaqların evlərində monitorinqlər təşkil olunub, onlara lazımi köməklik göstərilib. Bundan əlavə, bayram günlərində və tədbirlərdə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, qaçqın və məcburi köçkün, sağlamlıq imkanı məhdud, şəhid və aztəminatlı ailələrdən olan 720 uşağa hədiyyə və sovqatlar verilib, 15 sentyabr – Bilik Günü ilə əlaqədar xüsusi kateqoriyadan olan 394 uşaq məktəbli paltarı, dərs ləvazimatları və qış geyimi ilə təmin olunublar. Həmçinin hesabat dövrü ərzində 11 uşaq övladlığa verilib.

Diqqətə çatdırılıb ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası nəzarətdə saxlanılıb, 2018-2019-cu tədris ilində 42 uşaq məktəbəqədər təhsil müəssisələrində, 10 uşaq Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində, 9 uşaq ümumtəhsil məktəblərində fəaliyyət göstərən məktəbəqədər hazırlıq qruplarında, nitq qüsuru olan 149 uşaq isə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin defektoloji bölmələrində tədrisə cəlb edilib.

Bundan əlavə, 2018-2019-cu tədris ilinin əvvəlində məktəb yaşı çatan 108 sağlamlıq imkanları məhdud uşaqdan 68-i ümumtəhsil müəssisələrinin birinci siniflərinə qəbul olunub.

Vurğulanıb ki, uşaqların sağlamlıqlarının qorunması diqqətdə saxlanılıb, 2018-ci ildə sərhəd zonalarında yerləşən ucqar dağ kəndlərində 12 min 359 uşaq müayinə olunub. Bununla yanaşı, uşaqların icbari dispanserizasiyası zamanı 21 min 956 uşaq müayinə olunub, 278 nəfər müxtəlif xəstəliklərə görə dispanser qeydiyyatına alınıb. Eyni zamanda elektron sağlamlıq kartlarına keçid işi daha da yaxşılaşdırılıb, 1457 elektron kart alınıb valideynlərə paylanılıb.

Hesabat dövrü ərzində əlamətdar günlərdə uşaqlar üçün bayram tədbirləri və yaradıcılıq müsabiqələri keçirilib. Müsabiqələrdə 3668 uşaq iştirak edib, qaliblərə və iştirakçılara diplom və hədiyyələr verilib.

Ramilə Seyidova bildirib ki, 2018-2019-cu tədris ilində muxtar respublikada fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə müxtəlif ixtisaslar üzrə 990 şagird qəbul olunub. Ötən il uşaqların, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə, ümumilikdə, 420 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahətləri təmin olunub.

Qeyd edilib ki, hesabat dövrü ərzində 20 uşaq müəssisəsində dövri monitorinq, 694 reyd yoxlaması keçirilib, müxtəlif mövzularda görüşlər təşkil edilib.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 2018-ci ildə 5640 uşaq haqqında fərdi məlumatlar daxil edilib və bu uşaqların sayı 17 min 40 nəfərə çatıb.

Sonra məruzə ətrafında Şərur Rayon İcra Hakimiyyəti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın sədri Vüsalə Ağayeva, Naxçıvan Şəhər İcra Hakimiyyəti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın sədri Pəncalı Hüseynov, Kəngərli Rayon İcra Hakimiyyəti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın sədri Səriyyə Qurbanova çıxış ediblər.

Sonda komissiyanın 2019-cu il üçün İş Planı müzakirə olunub. Monitorinqlər keçiriləcək uşaq müəssisələri və monitorinqin keçirilməsi üzrə yaradılan ekspert qrupunun tərkibi müəyyənləşdirilib.

***Naxçıvan Muxtar Respublikası***
***Ailə, Qadın və Uşaq Problemləri üzrə***
***Dövlət Komitəsinin mətbuat xidməti***

Yeni nəşrlər

# "Qurani-Kərim"in təsəvvüf üslubunda ilk mükəmməl təfsiri ilk dəfə Azərbaycan dilində




*Azərbaycanın hər guşəsində İslam dinini əsərlərində təbliğ edən görkəmli alim və sənətkarlar yaşayıb. Onların fəaliyyəti həmin dinin möhkəmlənməsində, yayılmasında, eyni zamanda İslamın elmi baxımdan izahında mühüm rol oynayıb. Qədim Naxçıvan diyarı həm də belə şəxsiyyətləri ilə tanınır. Ümummilli lider Heydər Əliyev 11-12 iyul 1996-cı ildə Naxçıvan şəhərində keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun iştirakçılarına göndərdiyi məktubda yazırdı:* ***"Hər daşı, qayası tarixin canlı şahidi olmuş bu torpaq bir çox dünya şöhrətli alim və mütəfəkkirin, memar və ədibin, dövlət xadimi və sərkərdənin vətəni olmuşdur. Onların fəaliyyəti və irsinin bəşər tarixində rolu danılmazdır".***

Qeyd etmək lazımdır ki, müstəqillik illərində, milli-mənəvi dəyərlərimizin, mədəniyyətimizin inkişafına töhfə vermiş şəxsiyyətlərin irsinin öyrənilməsi üçün geniş və münbit şərait yaradılıb. Ötən il isə Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı kimi dünya ictimaiyyətinin diqqət mərkəzində olub, bu sahədə böyük mədəni-ictimai əhəmiyyətə malik tədbirlər keçirilib, bu tədbirlər diyarımızdan İslam dünyasına mühüm bir pəncərə açıb.

2018-ci il üçün Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi münasibətilə keçirilən açılış tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"İslam elm, mədəniyyət, sülh və mərhəmət dinidir. Mənəvi saflığa və ədalətə çağırışdır. Dünya sivilizasiyasının formalaşıb inkişaf etməsində İslam təhsilinin, elminin və mədəniyyətinin böyük rolu vardır. Bunun sayəsində qədim Naxçıvan şəhərində də zəngin tarixi-mədəni irs formalaşmışdır".***

Bu istiqamətdə aparılan mühüm işlər sırasında görkəmli İslam alimi Nemətullah Naxçıvani irsinin öyrənilməsi və təbliği də əhəmiyyətli yer tutur.

Nəqşibəndiliyin ən böyük şeyxlərindən olan Naxçıvanini müasirləri "gizlənən dərviş" adlandırıblar. Mütəsəvvüf (təsəvvüf alimi) və müfəssir (təfsir alimi) kimi tanınan Naxçıvani çox sayda əsərlər qələmə alıb. O, "Qurani-Kərim"i təsəvvüf üslubunda təfsir edən ilk alim kimi tarixə düşüb. Təəssüflər olsun ki, Naxçıvaninin heç bir əsəri dilimizdə nəşr edilmədiyi kimi, onun haqqında Azərbaycan elmi-ədəbi mənbələrində məlumat tapmaq da çox çətin idi.

Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin XV-XVI əsrlərdə yaşamış görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında 2018-ci il 29 oktyabr tarixdə imzaladığı Sərəncam da mənəvi dəyərlərin qorunub inkişaf etdirilməsi, təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Bu tarixi sərəncam milli mədəniyyətimizin, mənəvi dəyərlərimizin tədqiqinə göstərilən dövlət qayğısının daha bir bariz ifadəsidir. Sərəncamla təsdiq edilən Tədbirlər Planında böyük İslam mütəfəkkirinin yaradıcılığının dərindən öyrənilməsi, bu mövzuda beynəlxalq konfransın keçirilməsi, "Nemətullah Naxçıvani: taleyi və sənəti" kitabının nəşr edilməsi, "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" ("Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi") adlı təfsirin dilimizə tərcümə olunub çap etdirilməsi kimi mühüm vəzifələrin həyata keçirilməsi nəzərdə tutulub.

Bilindiyi kimi, Nemətullah Naxçıvani də Naxçıvanın adını yüksəklərə qaldıran alimlərdən olub. O təkcə ilahiyyat elmində deyil, həm də dünyəvi elmlərdə mahir idi. Dövrünün böyük övliyalarından olan görkəmli alim bir çox sahədə söz və hikmət sahibi olub. "Şərq qapısı" qəzetinin 19 fevral 2014-cü il tarixli nömrəsində dərc olunan məqalədə yazılır: "Nemətullah Naxçıvaninin yazdığı əsərlər əxlaq, fəzilət, elm və ürfan nümunəsi kimi məşhurlaşmış, ona xalqın rəğbətini, məhəbbətini qazandırmışdır. Zahiri və batini elmlərdə çox yüksək biliyə malik Nemətullah Naxçıvani mənəvi elmlərdəki dərin biliyi ilə təsəvvüfdə ilahi sirlər dənizinə vaqif olanlardandır".

Nemətullah Naxçıvani 1452-ci ildə Naxçıvan şəhərində dünyaya gəlib, böyüyüb boya-başa çatıb, o dövrün tanınmış elm ocaqlarında mükəmməl təhsil aldıqdan sonra Vətəninə dönüb. Uzun müddət Naxçıvan mədrəsələrində çalışıb, öz elmi səviyyəsini inkişaf etdirib, fiqh, kəlam, əqaid, bəlağət kimi elm sahələrini dərindən öyrənib, xidmətləri ilə əlaqədar ona "Baba" titulu verilib. Bir müddət sonra Nemətullah İslam dünyasında məşhur elm və mədəniyyət mərkəzi kimi tanınan Təbriz şəhərinə köçüb, ömrünü nəqşibəndiliyə, ilahi elmlərin tədqiq və təbliğinə həsr edib. Təbrizin elmi mühitində "Şeyx" titulunu almış bu sufi mütəfəkkiri bütün həyatı boyu elmi düşüncənin inkişafına xidmət edib, bir sıra qiymətli əsərlər qələmə alıb.

XV əsrin sonları, XVI əsrin əvvəllərində yaşamış Nemətullah Naxçıvaninin mənbələrdə üsul və fiqhdə kamil şəxsiyyət olduğu və təsəvvüf ədəbiyyatı tarixinin ən gözəl sufiyanə təfsirini yazdığı qeyd edilir. Bu baxımdan onun Anadoluya gəlməzdən öncə yazdığı "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" adlı fundamental traktatı müqəddəs kitabımızın surə və ayələrinin təsəvvüfi təfsirini verən ilk qaynaqdır. Ona görə də bu əsər uzun müddət ilahiyyat alimlərinin, şərqşünasların stolüstü kitabı olub. Həmin əsər zamanında Osmanlı alimləri tərəfindən pul toplanaraq nəşr etdirilib. Həmin əsərin dünyanın müxtəlif muzey və kitabxanalarında onlarla əlyazma nüsxələri mövcuddur. Əsərin orijinalı, Nemətullah Naxçıvaninin əlyazısı ilə yazdığı nüsxəsinin II cildi Topqapı sarayı III Əhməd xan kitabxanasında (İstanbul) mühafizə olunur. Bu kitab 1908-ci ildə Mətbəə-i-Osmaniyyədə iki cilddə nəşr edilib. Əsər çətin dərk edildiyindən yenidən nəşr olunmayıb.

"Xalq qəzeti"nin 2013-cü il 13 noyabr tarixli nömrəsindəki məqalədə oxuyuruq: "Şübhə yox ki, Nemətullah Naxçıvanidən əvvəl Quranın təsəvvüf üslubunda təfsiri üçün bəzi cəhdlər edilmişdir. Ondan əvvəl qələmə alınan belə əsərlərin ən böyük çatışmazlığı Quranın, sadəcə, bəzi surələrini və ayələrini əsas almaları, müqəddəs kitabın başdan sona təfsir olunmamasıdır. Bu ağır və məsuliyyətli vəzifəni boynuna götürən ilk mütəsəvvüf Nemətullah olmuşdur. İlk dəfə o, Quranı ayə-ayə başdan sonadək təsəvvüfi əsaslara görə təfsir etmişdir. Buna görə də təfsirində bu anlayışın bütünlüyünü və dərinliyini açmağa böyük cəhd göstərmişdir. Özündən sonrakı bütün mütəsəvvüflərin başlıca mənbəyinə çevrilən bu əsər İslam təsəvvüf ədəbiyyatının şah əsərləri arasında göstərilir".

Son dövrlərdə, XXI əsrdə bu əsərə yenidən müraciət olunub. Türkiyədə yaşayan ilahiyyatçı alim Ali İhsan Türcan haqqında söhbət açdığımız əsəri Kayseri şəhərində "Naxçıvani təfsiri" adı altında üç cilddə nəşr etdirib. İlk clddə 13, ikinci cilddə 20, üçüncüdə isə 81 surənin təfsiri və şərhi yer alıb. İlk cild 900, ikinci cild 773, üçüncü cild 904 səhifədən ibarətdir.

"Şərq qapısı" qəzetinin 6 yanvar 2018-ci il tarixli nömrəsində dərc olunan "Baba Nemətullah Naxçıvaninin şah əsəri" adlı məqalədə yazılır: "Əl-Fəvatih-ül-İlahiyyə vəl Məfatih-ül-Qeybiyyə" əsərində alimin şərhlərinə diqqət yetirdikdə aydın olur ki, Nemətullah Naxçıvani son dərəcə yüksək mədəniyyət və dühaya sahib alim olub. O, əsərlərində ən başda "Beyzavi" təfsiri olmaqla bir çox təfsirdən nümunələr verib. Bu da onun geniş səpkili mütaliəyə sahib olduğuna işarədir. Bəhs etdiyimiz əsər təsdiq edir ki, dahi alim "Qurani-Kərim"i əzbər bilib və bu dəyərli kitaba böyük hörmət bəsləyib".

Qeyd edək ki, Naxçıvani məşhur təfsirini qələmə alarkən heç bir ədəbiyyatdan istifadə etməyib, öz fikirlərini sərbəst şəkildə, böyük elmi ustalıqla ifadə edib.

Artıq "Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi" çoxcildliyinin birinci cildi dilimizə tərcümə olunaraq "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis şəkildə nəşr edilib.

Kitabın tərcüməçisi filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova, elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarovdur.

Adıçəkilən sərəncamda da qeyd edildiyi kimi Nemətullah Naxçıvaninin elmi dünyagörüşünün formalaşmasında və kamilləşməsində Naxçıvan ictimai-mədəni və elmi mühitinin mühüm təsiri olub. Şərqin bu böyük filosofunun elmi yaradıcılığında qədim türk sivilizasiyası ilə İslam dini dünyagörüşü vəhdət təşkil edib.

Müəllif əsərini "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" adlandırmasının səbəbini belə izah edir: "Bilin ki, bu əsərə Allah dərgahından "Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi" adı verilib. Çünki bu əsərdə nə varsa, hamısı Allah-Taalanın bəxş edib ortaya qoyduğu, yalnız mərhəmətindən ibarət izahlardır. Bu əsər "Quran"ın sözlərini açıqlayır, Furqanın (haqqı batildən, doğrunu yanlışdan ayıran) hikmətlərini izah edir".

Təfsirin "Giriş"inə nəzər saldıqda aydın olur ki, Nemətullah Naxçıvani irsinin tərcümə olunub oxucu auditoriyasına çatdırılması son dərəcə çətin prosesdir. Görkəmli alimin dilinin ağırlığı, İslam və təsəvvüfi terminlərin geniş şəkildə istifadəsi bu fikri söyləməyə əsas verir. Təqdirəlayiq haldır ki, kitabın tərcüməçisi Nərgiz İsmayılova elmi redaktoru Rəşad Zülfüqarovun da yaxından köməkliyi ilə bu ağır və məsuliyyətli işin öhdəsindən uğurla gəlib.

Nərgiz İsmayılovanın tərcüməçilik təcrübəsindən irəli gələrək əsərin səlislik və elmiliyinin qorunub saxlanılması gənc alimin həm elmə, həm də vətəninə olan sevgisinin bariz nümunəsi kimi diqqəti cəlb edir.

Bu qiymətli mənbə bir çox iklərin vücud tapdığı Naxçıvan torpağının dünyada tanıdılmasında çox əhəmiyyətli rola malikdir.

Görkəmli İslam mütəfəkkirinin dəyərli təfsir əsərinə yazdığı 19 səhifəlik müqəddiməsi və girişin özü ayrılıqda bitkin bir elmi əsər təsiri bağışlayır. Bu giriş alimin "Vəhdəti-vücud" nəzəriyyəsi haqqında görüşlərini ehtiva edir, onun bilik və təfəkkür dairəsinin nə qədər dərin olduğunu göstərir.

Müəllifin "Qardaşlarımdan və dostlarımdan arzum budur ki, bu əsərə, sadəcə, ibrət gözü ilə baxsınlar. Fikir bildirərkən mənəvi zövq və vicdan hissi ilə oxusunlar. Sübut, nəfsi-hesab və təxminlə yox, real təhlil və müşahidə ilə yanaşsınlar" qeydi diqqəti çəkir.

Bundan başqa, tərcümədən də aydın olduğu kimi, Naxçıvaninin təfsirində hər surə üç hissədən ibarətdir: birinci hissə, təfsirə giriş, hər bir surənin təfsirinə görə fərqlilik kəsb edən şərhi.

İkinci hissədə həmin surənin bütün ayələrinin dolğun elmi izahı verilir. Üçüncü hissə isə surənin nəticəsi, yaxud xətmi adlandırılır. Burada Nemətullah Naxçıvani arif və saleh bəndələrə istiqamət vermək xarakteri daşıyan yekun nəticəni səlis və konkret şəkildə qələmə alıb.

Kitabın digər əhəmiyyətli xüsusiyyətlərindən biri ayələri qısa söz və cümlələrlə təfsir etməsidir. Orijinala xələl gətirilmədən, elmi əsaslara söykənərək edilən tərcümə və tərcüməçinin bəzi mətləblərə gətirdiyi izahlar əsərin aydın şəkildə dərk olunmasına və mütaliəsinə imkan verir. Bu da oxucunu təfsir zövqlə oxumağa sövq edir. Təfsir kitabının bəzi səhifələrində müəllifin qaynaq verdiyi, istinad etdiyi mənbələr göstərilib. Surələrin əvvəlindəki hər "Bismillah" kəlməsi surənin girişinə uyğun şəkildə şərh edilir. Nemətullah Naxçıvani "Vəhdəti-vücud" nəzəriyyəsini təfsirinin hər məqamında araşdırmağa səy göstərib.

Əsərin 676 səhifəlik bu cildində müqəddəs kitabımızın, sadəcə, 13 surəsi və onun ayələrinin şərhi verilib. Ümid edirik ki, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova tezliklə "Qurani-Kərim"in təfsirinin digər cildlərinin tərcüməsi kimi vacib bir missiyanı da uğurla yerinə yetirəcəkdir. Çünki böyük filosof, mütəfəkkir Nemətullah Naxçıvaninin bu təfsiri müqəddəs kitabımızdakı hikmətləri daha dərindən dərk etmək baxımından olduqca əhəmiyyətlidir.

*Yeni nəşr Naxçıvanın İslam mədəniyyətinin əsas mərkəzlərindən biri olduğunu bir daha sübut edir. Əsər Ali Məclis Sədrinin təşəbbüs və qayğısı ilə Azərbaycan xalqına yenidən qazandırılan Nemətullah Naxçıvani irsi haqqında gələcək fundamental tədqiqatlar üçün qiymətli elmi mənbədir. Yeni nəşr geniş oxucu kütləsi üçün də dəyərli bir töhfədir.*

**Əbülfəz QULİYEV**
**AMEA-nın müxbir üzvü**

## *"Aleksandr Sergeyeviç Qriboyedov: şair-diplomat"* əsərinin müzakirəsi keçirilib



*AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilən Reyhan Mirzəzadənin "Aleksandr Sergeyeviç Qriboyedov: şair-diplomat" əsərinin müzakirəsi keçirilib.*

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək əsərin məziyyətlərindən danışıb.

Bildirib ki, əsərdən də məlum olduğu kimi Aleksandr Qriboyedov diplomatik fəaliyyəti dövründə Şərq aləminə, Azərbaycana və azərbaycanlılara dərin hörmətlə yanaşıb. O, 1818-ci ildə İrandakı rus diplomatik nümayəndəliyinin katibi təyin olunandan sonra İrana gedərkən yolunu hər zaman Azərbaycandan salıb. Əsərdə ölkəmizin bir çox şəhərlərində olan şair-diplomatın 1819-cu ildə Naxçıvanla tanış olması, burada qalması, onun yazılarında Naxçıvan, Qazançı, Culfa, Sədərək kimi şəhər və kəndlərin adlarının çəkilməsi, Naxçıvanla bağlı qeydləri, xatirə və digər yazılarından bəhs olunur. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunan kitab əhəmiyyət kəsb edən bir çox tarixi məqamları əhatə edir.

Vurğulanıb ki, fəaliyyəti dövründə diplomat Azərbaycan ərazilərinə ermənilərin köçürülməsinin qəti əleyhinə olub ki, bu da əsərdə öz dolğun əksini tapıb.

Daha sonra bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov çıxış ediblər.

Sonda suallar cavablandırılıb.

**AMEA Naxçıvan Bölməsinin**
**İnformasiya şöbəsi**

*Əlahiddə Ümumqoşun Ordunun bir qrup hərbi qulluqçusu beynəlxalq qış təlimində iştirak etmək üçün Türkiyə Respublikasının Qars şəhərinə yola salınıb.*

## Bir qrup hərbi qulluqçu beynəlxalq qış təlimində iştirak edəcək

Yolasalma mərasimində Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Teymur Eyyubov çıxış edərək bildirib ki, fevralın 23-dək Türkiyə Respublikasının Qars şəhərində keçiriləcək çoxmillətli beynəlxalq səviyyəli qış təlimində Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının da iştirak etməsi hər birimizi daha da qürurlandırır. Qars təlimində çətin relyefli ərazilərdə, qarlı, şaxtalı havalarda döyüş əməliyyatlarının aparılması tapşırıqları yerinə yetiriləcək. İnanırıq ki, ümumilikdə, 28 ölkənin hərbi qulluqçularının müşahidəçi və iştirakçı qismində cəlb edildiyi bu təlimdə Azərbaycan və Türkiyə hərbçiləri həmişə olduğu kimi bu dəfə də yüksək peşəkarlıq nümayiş etdirəcəklər.



Sonda təlimə cəlb edilmiş bölmələr Türkiyə Respublikasının Qars şəhərinə yola salınıb.

**Nəriman NƏCƏFOV**

# Bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti, qarşıda duran vəzifələr müzakirə edilib

2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə verilən tapşırıqların icrası və qarşıda duran vəzifələrlə əlaqədar Şərur Rayon İcra Hakimiyyətində müşavirə olub. Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov tədbirdə çıxış edərək bildirib ki, Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Şərur rayonunda da müasir idman məktəbləri və qurğuları istifadəyə verilib.



Diqqətə çatdırılıb ki, hazırda rayonda Olimpiya-İdman Kompleksi, Uşaq-gənclər idman məktəbi, şahmat məktəbi, 13 müxtəlif federasiya bölməsi, ötən ildən fəaliyyətə başlayan bədii gimnastika, üzgüçülük, stolüstü tennis üzrə 16 qrup fəaliyyət göstərir. Rayonda idmanın müxtəlif növləri ilə məşğul olanların sayı 5 min 753 nəfərdir. Aşağı Yaycı, Dəmirçi, Aralıq, Mahmudkənd, Arbatan kəndlərindəki stadionlar əsaslı təmir olunaraq istifadəyə verilib.

Vurğulanıb ki, Şərur şəhərində hər cür şəraiti olan şahmat məktəbi, bütün ümumtəhsil məktəblərində şahmat sinifləri fəaliyyət göstərir. Rayon üzrə 8 min 58 şagird bu idman növünün sirlərinə yiyələnir.

Qeyd olunub ki, mövcud olan infrastruktur və idmançılara göstərilən dövlət qayğısı nəticəsində 2018-ci ildə rayonun idmançıları bir sıra nailiyyətlər əldə ediblər. Məktəbli Yeganə Əhmədova Mingəçevir şəhərində keçirilən şahmat üzrə zona yarışında öz həmyaşıdları arasında 2-ci yerə, Naxçıvan şəhərində təşkil olunan seçmə yarışlarda isə 1-ci yerə layiq görülüb. Yeniyetmə idmançılar Həsən Babayev və Gülcahan Əliyeva ağır atletika üzrə Azərbaycan birinciliyinin qalibi olublar. Gənclər arasında ağır atletika üzrə Azərbaycan çempionatında Tərmenxan Babayev ötən il də çempion adını qoruyub saxlamaqla bərabər, oktyabr ayında Argentinanın paytaxtında keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında ölkəmizi layiqincə təmsil edərək gümüş medal qazanıb.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə qarşıya çox mühüm vəzifələr qoyulub. Bu vəzifələrin yerinə yetirilməsi, həmçinin sağlam cəmiyyət quruculuğunda gənclərlə işin düzgün təşkilində bədən tərbiyəsi və idmanın mühüm rolunu nəzərə alaraq ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisinə nəzarət artırılmalı, rayon Uşaq-gənclər idman məktəbinin və şahmat məktəbinin fəaliyyəti gücləndirilməli, mövcud stadionlardan səmərəli istifadə edilməli, idman obyekt və qurğularının qorunması, sağlamlıq imkanları məhdud olanların idmana cəlbi diqqət mərkəzində saxlanılmalıdır. Rayon Gənclər və İdman İdarəsi Təhsil Şöbəsi ilə birlikdə idmanın kütləviliyini təmin etmək üçün üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməlidirlər. Digər aid təşkilatlar, həmçinin federasiya bölmələrinin rəhbərləri gənc və perspektivli idmançıların yetişdirilməsi üçün səylərini artırmalıdırlar. Ona nail olmaq lazımdır ki, idmançılarımız daha nüfuzlu yarışlarda böyük nəticələr əldə etsinlər.

Tədbirdə çıxış edən rayon Gənclər və İdman İdarəsinin rəisi Ramil Dadaşov, ağır atletika üzrə məşqçi-müəllim Şəfi Hüseynov, şahmat məşqçisi Bahəddin Hətəmov bədən tərbiyəsi və idmanın inkişafına göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlıqlarını bildiriblər.

Müşavirədə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası Şərur Rayon Bölməsinin 2019-cu il üçün iş planı təsdiq edilib, idman sahəsində fərqlənən məşqçi-müəllimlərə və məktəblilərə hədiyyələr təqdim olunub.

**Elman MƏMMƏDOV**

Kəngərli Rayon İcra Hakimiyyətində keçirilən yığıncağı giriş sözü ilə açan rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov muxtar respublikada, o cümlədən Kəngərli rayonunda bədən tərbiyəsi və idmanın inkişafına göstərilən diqqət və qayğıdan, yaradılan şəraitdən danışıb.



Qeyd olunub ki, hazırda rayonda şahmat məktəbi, Uşaq-gənclər idman məktəbi, mərkəzi stadion, süni örtüklü mini-futbol meydançası, məktəblərdə müasir idman zalları və açıq idman qurğuları mövcuddur. İdmana göstərilən qayğının nəticəsi olaraq 2018-ci ildə rayon mərkəzi stadionu əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Muxtar respublikada fəaliyyət göstərən 12 federasiyanın rayon bölmələri yaradılıb. Kəngərlidə idmanla məşğul olanların sayı 4602 nəfərdir. Sağlamlıq imkanları məhdud olan 41 uşaq və gənc də idmana cəlb olunub.

Rayonda 2018-ci il ərzində idman sahəsində əldə olunan uğurlardan bəhs edən Kamal Ələkbərov bildirib ki, boks üzrə keçirilən muxtar respublika birinciliklərində rayonu təmsil edən komandanın 5 üzvü ayrı-ayrı çəki dərəcələri üzrə I və III yerlərə layiq görülüb, kikboksinq üzrə keçirilən muxtar respublika birinciliyində iştirak edən 6 idmançımız isə yarışın I, II və III yerlərinin qalibi olublar. Uşaq-gənclər şahmat məktəbinin yetirməsi Pərviz Rzayev Türkiyə və İranda keçirilən beynəlxalq şahmat yarışlarında iştirak edərək uğurlu nəticələr qazanıb.

Müşavirədə qarşıya qoyulmuş vəzifələrdən danışan icra başçısı diqqətə çatdırıb ki, rayonda müasir idman infrastrukturunun, hərtərəfli şəraitin yaradılmasına baxmayaraq, hələ də mövcud imkanlardan lazımınca istifadə olunmur. Qarşıya qoyulmuş vəzifələrin icrası üçün rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, federasiyaların rayon bölmələri öz fəaliyyətlərini gücləndirməlidirlər. Aidiyyəti qurumlar tərəfindən rayonda idmanın müxtəlif növlərinin inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, idman yarışlarının kütləviliyinin artırılması işi diqqətdə saxlanılmalı, müxtəlif növlər üzrə rayon birinciliklərinin keçirilməsi davam etdirilməli, muxtar respublika, ölkə və beynəlxalq səviyyəli yarışlarda rayon idmançılarının iştirakı təmin edilməlidir. Gənclər və İdman İdarəsi rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi ilə birgə tədbirlər keçirməli, sağlamlıq imkanları məhdud idmançıların rayonun və muxtar respublikanın idman həyatına daha fəal inteqrasiyasına nail olunmalıdır. Ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisinə nəzarət artırılmalı, Uşaq-gənclər şahmat və idman məktəbinin fəaliyyəti gücləndirilməli, idman yarışları və müxtəlif idman oyunları müvafiq federasiya bölmələri ilə birlikdə təşkil edilməlidir.

Tədbirdə Kəngərli rayonunda 2019-cu il ərzində idman sahəsində görüləcək işlərlə bağlı tədbirlər planı təsdiq edilib.

Müzakirə olunan məsələ ilə əlaqədar çıxışlar dinlənilib.

Tədbirin sonunda ötən il ərzində yüksək nəticələr əldə edən idmançılara hədiyyələr təqdim olunub.

**Babək İSMAYILOV**

*Xalq təqvimi*

# Kiçik çillə, Səddə, Xıdır Nəbi bayramları etnoqrafiyamızın zənginliyindən xəbər verir

Azərbaycan xalq təqvimində qış üç hissəyə bölünür: 22 dekabr-30 yanvar – Böyük çillə, 31 yanvar-19 fevral – Kiçik çillə və 20 fevral-21 mart – Boz ay (Çillə beçələr). Dekabr ayının 22-si qışın başlanğıcıdır. İnsanlar qışın girməsini təmtəraqla, bayram əhval-ruhiyyəsi ilə qarşılayıblar. Yanvar ayının 31-də isə Kiçik çillə girir. Bu zaman deyirlər ki, qışın üçdə ikisi gedibdir. Çünki Kiçik çillə çıxdıqdan sonra Boz ay (bayram ayı) başlayır. Atababalarımız Kiçik çillənin girməsini Səddə bayramı ilə daha təmtəraqla keçirərmişlər. Bu bayram haqqında günümüzədək çox az məlumat çatmışdır. Dahi Nizami Gəncəvinin "İsgəndərnamə"əsərində bu bayramın yalnız adı çəkilir:

*Novruz ilə Səddə bayramlarında*
*Ayinlər yenidən olurdu bərpa.*

Yaşlı insanların söylədiyinə görə, Səddə bayramı Novruza 50 gün qalmış keçirilirdi. Maraqlıdır ki, bir çox bayramlarımızın keçirilmə ssenarisində tonqal qalanması ənənəsi mühüm yer tutub. Bizə çatan məlumatlara görə, Səddə bayramında kənd meydanında ümumi tonqal yandırılar, tonqal ətrafında əl-ələ tutub kütləvi rəqs edər, "Novruza əlli, biçinə yüz əlli gün qaldı", – deyərdilər.

Digər tərəfdən biçinə 150 gün qalması da Naxçıvanla bağlıdır. Azərbaycanın taxılçılığın daha çox inkişaf etdirildiyi aran zonasında taxıl biçininə iyunun əvvəllərində, yəni Səddə bayramından 120 gün keçmiş, Naxçıvanda isə iyunun axırında – Səddə bayramından 150 gün sonra başlanılır. Bəzi etnoqraflar "Səddə" sözünün "sədd" sözündən yarandığını, qış ilə yay arasında tonqaldan sərhəd çəkməyə işarə olduğunu söyləyirlər. Qədim tarixə malik Səddə bayramında yandırılan tonqal "xoşbəxtlik tonqalı", "uğurluluq tonqalı" da adlandırıla bilər. Ümumiyyətlə, sonrakı çərşənbələrdə od qalanması insanların odu, istini arzulaması ilə bağlıdır.



Etnoqrafik yaddaşımıza nəzər salarkən görürük ki, çərşənbələr, eləcə də həmin vaxta təsadüf edən bir çox bayramlar ayrı-ayrı təqvim tarixlərində qeyd olunurmuş. Mənbələrdə göstərilir ki, Səddə bayramı kimi "dörd çərşənbə"nin də qeyd edilməsi qədimdir. Bir çox tədqiqatçılarda yalnız dörd çərşənbə izahına rast gəlinir. Folklorşünas Bəhlul Abdullanın 1989-cu ildə "Kommunist" qəzetində dərc olunan "Novruz gəlir" məqaləsində maraqlı bir qeyd var: "Boz ay çillə beçələrə bölünür. Etiqada görə, çərşənbələrdən birinci üçünə "oğru buğ" (oğru üskü), ikinci üçünə "doğru buğ" (doğru üskü), sonuncuya isə "ilaxır çərşənbə" deyilir. Əslində, bu bölgü Boz aya yox, Kiçik çillənin girdiyi gündən Novruza qədər olan dövrə aiddir. Və belə qənaətə gəlirik ki, ata-babalarımız dörd yox, yeddi çərşənbəni bayram kimi qeyd ediblər. İlk oğru buğ (çərşənbə) yanvarın 31-dən fevral ayının 6-na kimi olan dövrü əhatə edirmiş. Amma bütün hallarda Novruza qədər çərşənbələrin sayı yeddi olurmuş. Lakin axır çərşənbə martın 13-dən 20-nə kimi fərqli günlərə düşür".

Bəhlul Abdulla sonra qeyd edir ki, bu çərşənbələrin hər birinin ayin və mərasimləri vardır. Məsələn, torpağa dəyən ilk oğru buğda (Kiçik çillənin ilk çərşənbəsində) adamlar tonqal üstündən tullanmaqla yanaşı, düzəltdikləri lopanı alışdırıb üç dəfə ev-eşiyin ətrafına dolanaraq "qaçın-qaçın şeytanlar, sizi oda qalaram", – deyərmişlər. Ayinə görə "şər qüvvələr" qorxub qaçarmışlar.

Kiçik çillə dövründə keçirilən mərasimlərdən biri də "Xıdır Nəbi"dir. Buna bəzən "Xıdıra-xıdır" da deyirlər. Xıdır Nəbi mərasimi haqqında bir çox etnoqraflar geniş məlumat veriblər. Naxçıvanda Xıdır Nəbi bayramı müxtəlif vaxtlarda, bəzi kəndlərdə isə bir neçə dəfə keçirilir. "Azərbaycan etnoqrafiyası" kitabındakı "Novruz bayramı" məqaləsində Kiçik çillənin (fevralın) birinci ongünlüyünün "Xıdır Nəbi" adlandırıldığı, bu dövrün qışın ən sərt, çovğunboranlı keçdiyi qeyd edilir. "Xıdır girdi, qış girdi, Xıdır çıxdı, qış çıxdı" atalar sözü də məhz buradan yaranıb.

Xıdırın yaşıllıq, bahar hamisi olan Xızırla və əksər xalqlarda su, yağış, çay, dəniz hamisi kimi tanınan İlyasla da əlaqəsi olduğu qeyd edilir.

Bu məqamda xatırlatmaq yerinə düşər ki, bir çox hallarda Xıdır və Xızır sözləri arasındakı oxşarlıq çaşqınlıq yaradır. Xıdır Nəbi bilavasitə Kiçik çillənin ilk ongünlüyündə keçirilən xüsusi mərasimlə bağlı olduğu halda, Xızır, dediyimiz kimi, yaşıllıqla, baharla bağlıdır. Əslində isə bunların bir-biri ilə heç bağlılığı yoxdur. Etnoqraf Asəf Orucov da "Xalq təqvimi" kitabında qeyd edir ki, Xıdır Nəbi mərasiminin su və yaşıllıqla heç bir əlaqəsi ola bilməz. Naxçıvanın dağlıq bölgələrində bu dövrdə bir metrə qədər qar olur. Deməli, fevral ayında keçirilən Xıdır Nəbi bayramı ilə mayda keçirilən Hıdır-Ellezi qarışdırmaq o qədər düzgün olmazdı. Müəllif sonra qeyd edir: "Təkcə Azərbaycan türkləri deyil, digər türk xalqlarında da bu bayram qeyd edilir. Anadolu türklərində bayram "Hıdır-Ellez" adı ilə may ayının 6-da, Balkanlardakı müsəlman-türk xalqları arasında isə aprel ayının üçüncü ongünlüyündə keçirilir. Türkiyənin İqdır bölgəsində isə Xıdır Nəbi bayramı Naxçıvanda olduğu kimi fevral ayında qeyd edilir".

Naxçıvan şəhəri və ətraf kəndlərdə Xıdır Nəbi Kiçik çillənin ikinci cümə axşamı və ya Kiçik çillənin yarı olmasına yaxın olan cümə axşamı keçirilir. Babək rayonunun əksər kəndlərində isə Xıdır Nəbi Kiçik çillənin yarısına yaxın çərşənbə axşamı (eynilə çərşənbələr kimi) qeyd edilir. Mərhum professor, folklorşünas Məhərrəm Cəfərli çərşənbə günü keçirilən bayramı "bəy", cümə axşamı keçiriləni "rəiyyət Xıdır Nəbisi" adlandırırdı.

Xıdır Nəbinin keçirilmə mərasimi, demək olar ki, hər yerdə oxşardır. Adətən, Xıdıra yay dövründən hazırlıq gedir. Çətənə, küncüt, fındıq, şabalıd, noxud, püstə, badam, cəviz, ərik dənəsi, qarpız toxumu tədarük edilər və Xıdır günü qovurulardı. Qovurğanın əsasını isə buğda təşkil edir. Qovurğa qarışığına kişmiş, mövüc, iydə, tut qurusu, xurma qarışdırılır, əsasən, ağ, yumşaq növ buğdadan hazırlanır. Qovurğa dəstərdə (kirkirə, əl daşı) çəkilir və ya dibəkdə döyülür, qovut hazırlanır. Qovut uzaq səfərə gedən adamlar üçün çörəyi əvəz edən yol azuqəsi kimi də istifadə edilərdi. Qovut axşam pəncərə qabağında sərili qoyulardı ki, gecə Xızır Peyğəmbər qovuta əlini və ya çəliyini vursun. Quru halda qovutu yemək çətin olduğu üçün onu yoğurarlar. Qovut yoğurmaq üçün, əsasən, doşabdan istifadə edirlər. Doşabı bal ilə də əvəz etmək olar. Heç biri olmadıqda isə şəkər şərbəti hazırlayıb şərbətlə yoğururlar.

Göründüyü kimi, xalq təqviminin mühüm mərhələsini təşkil edən bayramlarda fərqli ayinlər icra olunub və onların bir çoxu günümüzdə yaşamaqdadır.

**Zaleh NOVRUZOV**

*İtmişdir*

Rüstəmov Murad Azər oğlunun adına Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tərəfindən verilmiş B-205908 nömrəli diplom itdiyindən etibarsız sayılır.

* * *

Əhmədov Elvin Eldar oğlunun adına olan 0201016702 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

İbrahimov Fizuli Hüseyn oğlunun adına olan evin 1382 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 79